HUMAN RIGHTS HOUSE NETWORK

# Azərbaycanda parlament seçkiləri azad və ədalətli hesab edilə bilməz

**İnsan Hüquqları Evləri Şəbəkəsinin Azərbaycandakı mobil seçki monitorinq qrupu geniş yayılmış pozuntular və qanuna zidd hərəkətlər səbəbindən Azərbaycanda parlament seçkilərinin azad və ədalətli hesab edilməyəcəyi faktından təəssüf hissi keçirir.**

7 noyabr seçkilərinə qədər müddətdə və seçkilər zamanı ifadə və toplaşmaq azadlıqları sistemli şəkildə pozuntulara məruz qalmışdır. Seçkidən öncəki müddət ərzində hökumət dinc toplaşmaq azadlığının reallaşdırılması məsələsində ayrı-seçkilik nümayiş etdirmiş, kütləvi görüşlər geniş şəkildə məhdudlaşdırılmış, ya da münasib olmayan ərazilərdə keçirilməsinə icazə verilmiş, vətəndaş cəmiyyəti təşkilatları tərəfindən regionlarda keçirilən seminar və görüşlərə icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının qanunsuz müdaxilələri parlament seçkiləri ərəfəsində artmışdır.

Jurnalistlərə qarşı zorakılıq hallarının cəzasız qalması və çoxsaylı defamasiya işləri ilə xarakterizə olunan Azərbaycanda ifadə azadlığının vəziyyətinin pisləşməsi də seçki kampaniyalarına təsir göstərmişdir. Azad və plüralist medianın, eləcə də seçki kampaniyası vaxtı canlı ictimai debatların olmaması ictimaiyyətin öz rəyini azad şəkildə formalaşdırmasına imkan verməmişdir.

İnsan Hüquqları Evləri Şəbəkəsinin üzvlərindən ibarət mobil monitorinq qrupu seçki öncəsi müddətdə bərabər iştirak üçün əsas şərtlərin ciddi şəkildə pozulmasına dair, o cümlədən imzaların toplanması, namizədlərin qeydiyyatı, seçicilərə çıxış, seçki komissiyalarında qeyri-bərabər təmsilçiliklə əlaqəli problemlərlə bağlı etibarlı məlumat toplamışlar.

Mərkəzləşdirilmiş seçici qeydiyyatı sisteminə texniki təkmilləşdirmələrə baxmayaraq səsvermə prosesi nə azad, nə də şəffaf keçməmişdir. Çoxsaylı səsvermə və bülletinlərin saxtalaşdırılması kimi hallara rast gəlinmişdir. İnsan Hüquqları Evləri Şəbəkəsinin nümayəndələri hakimiyyət nümayəndələrinin seçki prosesinə hökumətyönlü namizədlərin xeyrinə müdaxilələrinə dair etibarlı məlumatlar əldə etmişdir.

Seçkinin məxfiliyi tam təmin olunmamışdır. Nəticələrin dəyişməsi, bülletenlərin son sayımı şəffaf şəkildə baş verməmiş, nəticələr məntəqə komissiyalarında elan olunmamışdır. Ciddi problemlərdən biri də hakimiyyət nümayəndələrinin müşahidəçilərə təzyiqi olmuşdur. Bir çox hallarda müşahidəçilərə öz funksiyalarını yerinə yetirməyə mane olmuşlar. Bəzi müşahidəçilər seçki məntəqələrindən çıxarılmış, bəziləri hücuma məruz qalmışdır. Suraxanı rayonunda, 30 və 31 saylı seçki dairələrində protokalların saxtalaşdırılmasına etiraz etdiklərini iddia edən səkkiz müşahidəçini polis saxlamışdır. Bu müşahidəçilər arasında Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun əməkdaşı olan bir jurnalist də var idi. Sözügedən seçki müşahidəçiləri hüquqşünas və hüquqi məsləhətə çıxış olmadan dörd saat ərzində saxlanmışdır. İnsan Hüquqları Evləri Şəbəkəsinin nümayəndələrinə saxlanmanın mümkün motivlərini öyrənmək üçün müvafiq hüquq-mühafizə orqanları əməkdaşları ilə əlaqəyə girməyə imkan verilməmişdir.

Seçki müşahidəçilərinə təzyiqlər səbəbindən, səslərin sayılması prosesinin şəffaflığı və hüquqiliyini təhlil etmək üçün ehtimal çox azdır.

Yuxarıda sadalanan pozuntuları nəzərə alaraq, Azərbaycan hakimiyyətini aşağıdakı tədbirləri görməyə çağırırıq:

- Seçki saxtakarlığını aradan qaldırılmalı, saxtakarlıq və zorakılıq üçün məsuliyyət daşıyan şəxsləri dərhal və şəffaf şəkildə ədalət qarşısına gətirilməli. Baş Prokurorluq seçkidən öncə və seçki günü baş vermiş cinayətlərdən şikayətlərə dair təhqiqatlara başlamalı.
- Mərkəzi Seçki Komissiyası seçicilərdən, namizədlərdən, siyasi partiyalardan və müşahidəçilərdən gələn şikayətlərə baxmalı və qərar qəbul etməli.
- Seçki saxtakarlığı baş verən bütün dairələrdə nəticələr ləğv edilməli və yeni seçkilər keçirilməli.

HUMAN RIGHTS HOUSE NETWORK

Biz beynəlxalq ictimaiyyəti Azərbaycan hökumətinə təzyiq göstərməyə çağırırıq ki, öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri, o cümlədən Venesiya Komissiyasının tövsiyələrini, eləcə də aşağıdakıları yerinə yetirsinlər:

- İfadə azadlığı və toplaşmaq azadlığını təmin edəcək şəraitin yaradılması.
- Mərkəzi Seçki Komissiyasının tərkibini yenidən təşkil etmək və bütün siyasi qüvvələr üçün qanunla təminat verilmiş bərabər şərtlərin yaradılması.

Son olaraq, Avropa Şurasının Parlament Assambleyasına müraciət edirik ki, seçki pozuntularına dair düzgün və hərtərəfli təhqiqat aparılmayınca Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin səlahiyyətlərini qəbul etməyəcək tədbirlər həyata keçirsinlər.

*İnsan Hüquqları Evləri Şəbəkəsinin Azərbaycandakı mobil seçki monitorinq qrupu ölkədə fəaliyyət göstərən hüquq müdafiə təşkilatlarına və hüquq müdafiəçilərinə dəstək vermək üçün noyabr ayının 6-10 tarixlərində Azərbaycana səfər etmişlər.
Mobil seçki monitorinq qrupuna Osloda yerləşən Norveç İnsan Hüquqları Evi Fondu, Gürcüstandakı “42-ci maddə” və Ukrayna Helsinki Təşkilatından nümayəndələrindən ibarət nümayəndələr daxil idi. Qrupun üzvləri seçki dövründə Azəarbaycanda apardıqları monitorinqlə bağlı hesabat hazırlayacaqlar.

İnsan Hüquqları Evləri Şəbəkəsi dünyanın 15 ölkəsində (Qərbi Balkan, Şərqi Avropa, Cənubi Qafqaz, Şərqi Afrika və Qərbi Avropa) 70dən çox hüquq müdafiə təşkilatını özündə birləşdirən əməkdaşlıq forumudur. Azərbaycan İnsan Hüquqlari Evi də İnsan Hüquqları Evləri Şəbəkəsinə daxildir. Şəbəkənin məqsədi hüquq müdafiəçilərinə və onlarin təmsil etdiyi təşkilatlara dəstək vermək, qorumaq və gücləndirməkdir.